**Xəlil İlqaroğlu QULUZADE**
Odlar Yurdu Universitetinin doktorantı

# ƏMƏK BAZARINA ŞOK TƏSİRLƏRİN BƏZİ ÖLKƏLƏR ÜZRƏ QİYMƏTLƏNDİRİLMƏSİ TƏCRÜBƏSİ

**Xülasə**

Məqalədə, şok təsirlər və ya fluktuasiyalar, həmçinin əmək bazarında tələb və təklif funksiyalarının müxtəlif istiqamətlərdə dəyişməsi nəzəri olaraq təhlil edilib. Müəllif belə nəticəyə gəlib ki, əməyin tələb funksiyasından fərqli olaraq, təklif funksiyası, digər şərtlərin dəyişmədiyi hallarda, əmək haqqının artması ilə artır. Bu iki funksiyanın kəsişməsi əmək bazarında məşğulların tarazlıq sayını və əmək haqqının tarazlıq səviyyəsini ifadə edir

**Açar sözlər:** əmək bazarı, tələb funksiyası, təklif funksiyası, qiymət, tarazlıq.

**JEL:** L15
**DOİ:** 10.54414/XYZG2564

**Giriş**

Əvvəlki paraqrafda qeyd etdiyimiz kimi, əmək bazarına şok təsirlər müxtəlif amillərlə baş versə də onları iki qrupa, yəni əməyin tələb funksiyasına və təklif funksiyasına təsirlər kimi iki qrupa ayırmaq olar. Müharibələr, təbii fəlakətlər, pandemiyalar və sair səbəblər hər hansı regonda əmək bazarında tələbi azalda bilər. Bu regiondakı əmək bazarında tələbin uzunmüddətli dövrdə azalması həmin regionda əməyin qiymətinə təsir etməklə yanaşı, əmək miqrasiyasına da təsir edə bilər. Əmək miqrasiyası isə öz növbəsində digər regionda əmək bazarında əməyin təklifini artıra bilər. Təklifin artması isə həmin regionda əməyin qiymətinə təsirsiz ötüşməyə bilər. Əməyin tələbi və təklifi arasındakı tarazlıq müxtəlif amillərin təsiri ilə təmin edilir. Əmək bazarında şokların səbəblərindən biri hər hansı səbəbdən yaranan miqrasiya olduğu kimi, əks təsir də mümkündür və tez-tez rast gəlinir.

**Əsas mətn**

Müxtəlif ölkələrin timsalında aparılan tədqiqatların müqayisəli təhlili deməyə əsas verir ki, əmək bazarında şoklara səbəb olan əsas xarici amillər müharibələr, təbii fəlakətlər və pandemiyalardır. Bu və digər hadisələr nəticəsində əmək qabiliyyətli əhalinin bir yerdən digər yerlərə miqrasiyası baş verir və belə miqrasiya əmək bazarında, xüsusilə təyinat ölkəsində təklif şoku yaradır. Elə hallar ola bilər ki, əməyə olan tələbin ödənilməsi üçün baş verən miqrasiya, məsələn, bir regionda həyata keçirilən iqtisadi proqram digər regionlarda əməyə olan təklifi kəskin azalda və təklif şoku yarad bilər. Belə hal postkonflikt ərazilərin bərpası və ya təbii fəlakətdən sonra əhalinin öz ərazilərinə qayıtması zamanı onların məskunlaşdığı ərazilərdə əmək bazarında təklif şoku yarada bilər. Tədqiqatın obyekti kimi qəbul edilən işğaldan azad olunmuş Azərbaycan ərazilərində məskunlaşma prosesi də oxşar təklif şoku yarada bilər. Bu, hər iki bazarda, yəni həm işğaldan azad olunan ərazilərdəki əmək bazarında, həm də məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə əmək bazarında şok təsirlər yarada bilər. Lakin nəzərə almaq lazımdır ki, işğaldan azad olunan ərazilərə əhalinin qayıtması onların əvvəl məskunlaşdığı ərazilərdəki əmək bazarında təklif əyrisini sağa yox, sola sürüşdürəcək. Belə şok təsirlərin analiz edilməsi üçün digər ölkələrin təcrübəsinin ümumiləşdirilməsi mühüm əhəmiyyət daşıyır. Adətən təklif həcmindəki şoklar miqrasiya yaratmır, əksinə hər hansı səbəbdən yaranan miqrasiya əmək bazarında şok təsir yaradır. Lakin təklif həcmindəki şoklar digər regionlarda tələb həcmindəki şoklarla müşaiyyət olunarsa, miqrasiya baş vrə bilər. Məsələn, hər hansı regionda baş verən hadisələr nəticəsində əmək qabiliyyətli əhalinin digər regionda yaratdığı təklif şoku tələbi üstələdikdə, əmək qabiliyyətli əhalinin müəyyən hissəsi yenidən digər ərazilərə miqrasiya edə bilərlər. Lakin bu o halda ola bilər ki, üçüncü əmək bazarında yeni əməyə tələb olsun.

Beləliklə, tədqiqatın predmetinə uyğun olaraq, bizi maraqlandıran bir neçə məsələyə müxtəlif ölkələrin timsalında aparılan tədqiqatlar əsasında müqayisəli yanaşmağa çalışacağıq. Kolumbiya timsalında Calderón-Mejía və Ibáñez [1] tərəfindən aparılan tədqiqatda məcburi miqrasiyanın ekzogen xarakterindən istifadə edilib. Tədqiqatın əsas məqsədi konfliktə birbaşa cəlb edilməyən ərazilərdə əmək bazarına konflikt zonalarından məcburi miqrasiyanın hansı təsirlər etdiyi müəyyən etməkdən ibarət olub. Yuarıda qeyd etdiyimiz kimi, bu zaman münaqişənin birbaşa təsiri olan ərazilərdən əmək qabiliyyətli əhalinin münaqişənin birbaşa təsiri olmayan ərazilərə miqrasiya etməsi nəticəsində əmək bazarında təklif şoku baş verir. Alınan nəticələr göstərir ki, belə təklif şoku aşağı kvalifikasiyalı əməyin qiymətini xeyli aşağı salır.

Təbii fəlakətlər nəticəsində İndoneziyada əhalinin daxili miqrasiyasının əmək bazarına təsirləri Kleemans və Magruder[2] tərəfindən aparılan tədqiqatda qiymətləndirilib. Müəlliflər belə nəticəyə gəliblər ki, əhalinin miqrasiyasının 1% artması gəlirləri 0.97%, məşğulluğu isə 0.24 faiz bəndi azaldır. Lakin nəzərə almaq lazımdır ki, miqrasiyanın əmək bazarına təsirləri iqtisadi fəaliyyət sahələrindən asılı olaraq, dəyişirdi. Formal sektorda məşğulluğun azalması, qeyri-formal sektorda isə gəlirlərin azalması daha qabarıq hiss edilirdi. İndoneziya timsalında aparılan bu tədqiqatın nəticələrinə əsasən, miqrasiya edən əmək qabiliyyətli əhalinin mühüm hissəsi bir qədər kvalifikasiyalı olurlar. Buna görə də əmək bazarında baş verən şok dəyişikliklərə görə yerli əhaliyə nisbətən daha az neqativ təsirə məruz qalırlar.

Keçən əsrin axırlarında Sovet İttifaqının dağılması ilə, son 20 ildə Yaxın Şərq ölkələrində baş verən hərbi toqquşmalarla, son illərdə Ukrayna-Rusiya münaqişəsi ilə bağlı olaraq, milyonlarla əmək qabiliyyətli insanların həm daxili, həm də inkişaf etmiş Avropa ölkələrinə miqrasiyası bu ölkələrdə əmək bazarında təklif şoku yaratdı. Avropa ölkələrinin bəzilərinin timsalında bu problem Borjas və Monras [3] tərəfindən tədqiq edilib. Tədqiqatda əsasən dörd hadisə əsasında baş verən miqrasiya prosesinin əmək bazarına təsirləri öyrənilib: 1980-ci ildə Marielitosun Mayamiyə axını, 1962-ci ildə Əlcəzairin Müstəqillik Müharibəsinin sonunda fransız repatriatlarının və Əlcəzair vətəndaşlarının Fransaya axını, 1990-cı illərin əvvəllərində Sovet İttifaqının dağılmasından sonra yəhudi mühacirlərinin İsrailə axını, həmçinin 1991-2001-ci illər arası dövrdə Balkan müharibələri zamanı keçmiş Yuqoslaviyadan qaçqınların ölkədən çıxması. Alınan nəticələrə əsasən, ekzogen təklif şokları yerli əhalinin əmək bazarında rəqabət aparmaq imkanını məhdudlaşdırır.

Müharibələrin əmək bazarına təsirləri Afqanıstan timsalında Hameed və digərləri [4] tərəfindən aparılan tədqiqatda yer alıb. Tədqiqatda dörd hipotez irəli sürülüb. Birinci hipotezə əsasən, Əfqanıstanda işsizlik səviyyəsi ilə vətəndaş müharibəsi arasında qeyri-simmetrik əlaqə mövcuddur. İkinci hipotezə əsasən, vətəndaş müharibəsi həm qısa, həm də uzunmüddətli dövrlərdə işsizlik səviyyəsinə monoton olmayan mənfi təsir göstərir. Üçüncü hipotezə əsasən, Əfqanıstanda asimmetrik səbəb əlaqəsi vətəndaş müharibəsindən işsizlik səviyyəsinə doğru yönəlir, əks əlaqə isə mövcud deyil. Dördüncü hipotezə əsasən, maliyyə inklyuzivliyinin genişlənməsi vətəndaş müharibəsi ilə əlaqəlidir və vətəndaş müharibəsinin işsizlik səviyyəsinə birbaşa təsirini azaldır.

Türkiyədə daxili miqrasiya nəticəsində əmək bazarına təsirlər Berker [5] tərəfindən tədqiq edilib. Alınan nəticələrə əsasən ölkənin cənubi – şərq bölgələrində terrora qarşı mübarizə kontekstində daxili miqrasiya baş vermişdir. Belə miqrasiya payı yüksək olan əyalətlərdə yerli əhalinin əmək bazarının imkanlarından istifadəsi zəifləmişdir. Tədqiqatda 1990-2000-ci illəri əhatə edən dövrə aid məlumatlardan istifadə edilmişdir. Alınan nəticələr göstərir ki, hansı əyalətlərdə miqrant nisbəti daha çoxdursa, orada əmək bazarına təsirlər də güclüdür. Digər tərəfdən, miqrantların təhsil və yaş səviyyəsi də müəyyən fərqliliklər yaradır. Belə ki, miqrantlar arasında təhsil səviyyəsi yüksək olan əyalətlərdə yerli kişilərin əmək bazarında imkanlarında daha çox mənfi təsir dəymiş olur.

Alecke və digərləri [6] tərəfindən yerinə yetirilən tədqiqatda 1991-2006-cı illər arasında regional əmək bazarı dəyişənləri ilə Almaniya dövlətləri arasında daxili miqrasiya axınları arasındakı səbəb-nəticə əlaqəsi təhlil edilib.

Tədqiqatda dəyişənlər arasında əks əlaqə effektlərini müəyyən etmək və impuls-cavab funksiyaları vasitəsilə sistemin dinamik xüsusiyyətlərini təhlil etmək üçün Panel VAR yanaşmasından istifadə edilib. Tədqiqat göstərdi ki, 1990-cı illərin ortalarında Qərb-Şərq arasında böyük gəlir köçürmələri, sürətli ekzogen əsaslı əmək haqqı yaxınlaşması baş verib. Bununla belə, sonrakı dövrlər üçün bu əlaqənin inversiyası müşahidə edilir. Yəni, 2001-ci ildə Şərq-Qərb hərəkətlərinin ikinci dalğası ilə yanaşı, Şərqi Almaniyadan xaricə xalis axınlar onun zəif əmək bazarına və makroiqtisadi göstəricilərə nəzarət edildikdən sonra gözləniləndən xeyli yüksək olmuşdur.

Mitze, T. [7] tərəfindən aparılan tədqiqatda isə Avropa ölkələrində mövcud əmək bazarındakı fərqliliklərin miqrasiyaya təsiri analiz edilib. Alınan nəticələr göstərir ki, 2008-ci il böhranından əvvəl əmək bazarındakı fərliliklər miqrasiyaya ciddi təsir etmədiyi halda böhrandan sonrakı dövrlərdə belə təsirlər gücülü olub. Digər tərəfdən, hansı regionlarda uzunmüddətli işsizlik halları daha qabarıq olubsa, o regionlardan miqrasiya daha güclüdür.

Beyer, R. C. M., & Smets, F. [8] tərəfindən aparılan tədqiqatda Avropa və ABŞ əmək bazarındakı fərqlər və işçi axınlarının bu regionlarda əmək bazarındakı şoklara təsirləri araşdırılıb. Tədqiqatda çoxdəyişənli amil modelindən istifadə edilib. Bura həm regionu, həm də ölkəni xarakterizə edən amillər daxil edilib. Tədqiqatın nəticələrinə əsasən həm Avropada, həm də ABŞ-da işçi qüvvəsinin hərəkətliliyi regiona xas əmək tələbi şoklarına uzunmüddətli uyğunlaşmanın təxminən 50%-ni təşkil edir. Bu rəqəm Amerika Birləşmiş Ştatlarında bir qədər çoxdur. Tədqiqat həmçinin göstərir ki, işçi qüvvəsinin hərəkətliliyi Avropada ölkələrə xas tələb şoklarının aradan qaldırılmasına daha az səmərəli mexanizmdir. Alınan nəticələrə əsasən Avropada miqrasiyanın artması, ABŞ-da isə ştatlararası miqrasiyanın azalması tələb şoklarının aradan qaldırılmasında mühüm mexanizmdir.

Azərbaycanda qaşqın və köçkünlərin 30 ildən sonra öz yurdlarına qayıtması ilə bağlı olaraq, onların hazırda məskunlaşdığı ərazilərdə əmək bazarına olan təsirlərin qiymətləndirilməsi tədqiqatımızın əsas məqsədi olduğundan digər ölkələrdə oxşar hadisələrin müqayisəli təhlili daha maraqlı ola bilər. Lakin nəzərə almaq lazımdır ki, belə uzunmüddətli dövrdə öz yurdlarından kənarda qalmış insanların yenidən öz yurdlarına qayırması presedenti dünyada yoxdur. Yuxarıda qeyd etdiyimiz və çoxlu sayda digər tədqiqatlarda qısamüddətli dövrlərdə müxtəlif hadisələr nəticəsində baş verən miqrasiya nəticəsində əmək bazarına təsirlər daha çox tədqiqat predmeti olur. Pandemiya və ya hər hansı təbii fəlakət nəticəsində öz yurdlarından digər yerlərə miqrasiya edən insanların yenidən qayıtması, həmçinin müharibələr nəticəsində daxili miqrasiyanın baş verməsi də Azərbaycanda tədqiq etmək istədiyimiz problemə mahiyyətcə oxşamır. Məsələn, Bolqariya timsalında oxşar problem Zareva [9] tərəfindən tədqiq edilib. Tədqiqatda miqrasiyanın Bolqarıstanın əmək bazarına təsiri iki əsas aspektdə, yəni bolqar miqrantların getməsi və geri qayıtmasının təsiri qiymətləndirilib. Tədqiqatda nümayəndəli rəy sorğusunun məlumatlarından istifadə edilib. Miqrantların Bolqariyadan xaricə axınının təsirini araşdırarkən əsas diqqət miqrantların yaşına və təhsil strukturuna, həmçinin onların məşğulluq vəziyyətinə, peşələrinə və xaricdə iş tapmaq imkanlarına yönəlib. Miqrantların Bolqariyaya geri qayıdışının təsirlərinin öyrənilməsi zamanı isə əsas diqqət miqrantların iş vəziyyətinə, iqtisadi fəaliyyətlərinə görə məşğulluğuna və ixtisaslarına yönəlib. Tədqiqatçı, həm də qayıdan miqrantların hazırkı statusu ilə miqrasiya edilərkən malik olduqları statusları arasında müqayisəli analiz aparıb.

Oxşar problem Türkiyə timsalında Yetkin və Görmüş [10] tərəfindən tədqiq edilib. Tədqiqatda Türkiyə Statistika İnstitutunun sorğusunun nəticələrindən istifadə edilib. Araşdırmada geri qayıdan miqrantların iqtisadi inteqrasiyası müzakirə edilir. Demoqrafik amillərin və iş statusunun təsiri baxımından geri qayıdan miqrantlarla qeyri-miqrantlar arasında əhəmiyyətli fərqlərin olub olmadığını müəyyən etmək tədqiqatın əsas məqsədidir. Tədqiqatçılar iddia edirlər ki, geri qayıdan miqrantlar qeyri-miqrantlarla müqayisədə daha çox məşğulluq problemi ilə üzləşirlər. Araşdırmanın nəticələri onu deməyə əsas verir ki, geri qayıdanlar arasında yüksək təhsili olanlar işlə təminatda daha üstün mövqedədirlər. Təhsil səviyyəsinin aşağı

olması həm məşğulluqla bağlı, həm də sosial təminatla bağlı problemlər yaradır.

Baxmayaraq ki, bu tədqiqatda da miqrasiyanın əmək bazarına təsirləri kəmiyyətcə qiymətləndirilib, lakin problem Azərbaycan timsalında tədqiq edilən problemdən mahiyyətcə fərqlənir. Belə ki, 1) Türkiyəyə qayıdan miqrantlar kütləvi deyil və onların tərk etdikləri əmək bazarları Türkiyəyə aid deyil. Ona görə də Türk miqrantlarının hər hansı ölkədən kütləvi qayıtması o ölkədə əmək bazarına müəyyən təsirlər edə bilər. Həmçinin Türkiyədə əməyin təklifinə müəyyən təsirlər yarada bilər. Amma bizi maraqlandıran əsas problem Azərbaycan daxilində əhalinin kütləvi şəkildə işğaldan azad olan ərazilərə köçürülməsi prosesində onların son illərdə məskinlaşdığı ərazilərdə əmək bazarında yarana biləcək şok təsirlərdir. Odur ki, bu tədqiqatın da həm metodologiyası, həm də nəticələri Azərbaycan timsalında tədqiq edilən problemlə müqayisə üçün tətbiq edilə bilmir. Lakin bu tədqiqatda əldə edilən nəticə onu göstərir ki, hətta vətəndaşlığın olmasına və ya dil fərqlərinin olmamasına baxmayaraq, əmək bazarında qayıdan miqrantlarla miqrant olmayanlar arasında müəyyən fərqliliklər mövcuddur.

Dustmann və digərlərinin [11] apardıqları tədqiqatda Çexiya ilə sərhəddə iş təklif edən immiqrantların Almaniyada əmək bazarına təsirləri qiymətləndirilib. Tədqiqatda bu hadisə Almaniya əmək bazarına ekzogen təsir kimi qəbul edilib. Tədqiqat göstərib ki, belə ekzogen təsirlər Almaniyada əmək bazarında əmək haqqının azalmasına, həmçinin yerli əhalinin məşğulluq səviyyəsinin azalmasına səbəb olub. Maraqlı fakt ondan ibarətdir ki, təklif şoku kimi qəbul edilən belə ekzogen təsirlər nəticəsində gənc əmək qabiliyyətli yerli əhalinin əmək haqqı səviyyəsinə, yaşlı işçilərin isə məşğulluğuna mənfi təsirlər olub. Qeyd edək ki, bu tədqiqatın obyekti Azərbaycan timsalında tədqiqata cəlb edilən problemdən mahiyyətcə fərqli olsa da formaca müəyyən uyğunluq var. Belə ki, Azərbaycanda da işğaldan azad olan ərazilərə əhalinin köçməsi ölkənin böyük şəhərlərindən əmək qabiliyyətli çoxlu sayda insanın bu regionlardakı əmək bazarından uzaqlaşması və təklif şokunun yaradılması deməkdir. Belə şoklara ekzogen təsir kimi yanaşmaq və bu əmək bazarlarında həm məşğulluq səviyyəsinə, həm də əmək haqqına təsirləri qiymətləndirmək olar. Bu tədqiqatda hər hansı regionda (j), iki zaman intervalında (t və k) yerli əhalinin (N), hər hansı bacarığa malik grupunun (g) və yaş qrupunun (s) əmək haqqının loqarifminin ($\Delta \mathrm{lnw}_{gsj}$) və ya yerli əhalinin məşğulluğunun faizlə dəyişməsinin ($\Delta L_{gsj}^{N}$) 1990-ci və 1992-ci illər arası dövrdə Çex imiqrantlarının cəmi məşğulların sayındakı payından ($\Delta C_j^{92-90}$) asılılığı qiymətləndirilib. Tədqiqatda bu reqresiya tənlikləri aşağıdakı kimi ifadə edilib:

$$\Delta \mathrm{lnw}_{gs,j} = \alpha_{gs} + \beta_{gs} * \Delta C_j^{92-90} + u_{gs,j} \quad (1)$$

$$\Delta L_{gsj}^{N} = \gamma_{gs} + \delta_{gs} * \Delta C_j^{92-90} + \mu_{gs,j} \quad (2)$$

Burada

$$\Delta C_j^{92-90} = \frac{L_{j92}^{Chech} - L_{j90}^{Chech}}{L_{j90}^{N} - L_{j90}^{foreign}}$$

$$\text{və } \Delta L_{gsj}^{N} = \frac{L_{gs,jt}^{N} - L_{gs,jk}^{N}}{L_{gs,jk}^{N}}$$

$\beta_{gs}$ və $\delta_{gs}$ əmsalları immiqrasiyanın əmək haqqına və məşğulluğa təsirlərini xarakterizə edir.

Əmək bazarında şok dəyişikliklərin əmək haqqına və məşğulluğa təsirləri Ukrayna timsalında Lukianenko və Oliskevych [12] tərəfindən yerinə yetirilən tədqiqatda öz əksini tapıb. Qeyd edək ki, Ukraynada əmək bazarında daha ciddi şok Rusiya-Ukrayna müharibəsindən sonra yaranıb. Lakin bu tədqiqat Ukrayna əmək bazarını 2002-2014-cü illərarası dövr üçün tədqiq edib. Alınan nəticələr sübut edir ki, Ukrayna əmək bazarında texnoloji şoklar məşğulluq səviyyəsinin, məhsuldarlığın, əmək haqqı səviyyəsinin həm qısamüddətli, həm də uzunmüddətli dövrdə artmasına səbəb olub.

Beləliklə, müxtəlif ölkələrin timsalında hər hansı səbəbdən baş verən miqrasiya proseslərinin əmək bazarında yaratdığı şokların qiymətləndirilməsi metodologiyasının müqayisəsi deməyə əsas verir ki, bu proseslər mahiyyətcə fərqli olsalar da formaca iki qrupa ayrıla bilərlər. Birinci qrupda hər hansı səbəbdən baş verən miqrasiya təyinat ərazilərdə əmək bazarında təklif şoku yaradır. Bu zaman tələb həcminin dəyişmədiyi fərz edilir. Bu zaman təklif əyrisi sağa sürüşdüyündən bəzi ixtisaslar üzrə əməyin qiymətində aşağı enmələr baş verir və hətta bəzi

ixtisaslar üzrə işsizlik səviyyəsi artır. Belə bir hal Azərbaycanda keçən əsrin doxsanıncı illərində baş vermişdir. Belə ki, Ermənistan silahlı qüvvələri tərəfindən etnik Azərbaycanlıların həm Ermənistandan, həm də Azərbaycanın şərq rayonlarından qovulması nəticəsində bir milyondan çox insanın Azərbaycanın digər regionlarına, xüsusilə Bakıya köç etməsi nəticəsində əmək bazarında təklif həcmi kəskin artmışdır. Nəzərə alsaq ki, həmin dövrlərdə keçmiş Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan iqtisadiyyatı da zəifləmiş və bütün sahələrdə istehsal həcmi kəskin azalmışdı. Başqa sözlə desək, həmin dövrdə tələb həcminin də kəskin azalması baş vermişdir. Təklif əyrisinin sağa, tələb əyrisinin isə sola sürüşməsi nəticəsində nəinki əməyin qiyməti kəskin aşağı düşmüş, həm də yüksək səviyyədə işsizlik yaranmışdır. Sonrakı illərdə ölkədə aparılan islahatlar və neft istehsalından gələn gəlirlər yeni iş yerlərinin yaranmasına, tikinti sektorunun inkişafına, yeni qeyri-neft sektorunun formalaşmasına səbəb olmuş və ölkənin yeni reallıqla əmək bazarı yaranmışdır.

2020-ci ilin sentyabrında Azərbaycan silahlı qüvvələrinin 44 günlük hərbi əməliyyatı nəticəsində 30 il işğal altında olan ərazilərin azad edilməsi ölkənin əmək bazarında yeni reallıqlar formalaşdırır. Belə ki, işğaldan azad olan ərazilərdə böyük həcmdə yenidənqurma işləri həyata keçirilir. Bu ərazilərə ailələrin köçürülməsi, yeni iş yerlərinin yaradılması, səhiyyə, təhsil müəssisələrinin, həmçinin yeni istehsal və xidmət sahələrinin yaradılması əmək bazarında tələb həcmini getdikcə artırır. Əmək bazarının tələbi bu ərazilərdə yaşamaq qərarında olan əmək qabiliyyətli əhali tərəfindən ödəniləcək. Bu isə onların son 30 ildə məskunlaşdığı ərazilərdə, xüsusilə şəhərlərdə əmək bazarında təklif şoku yaradacaq. İşğaldan azad olan ərazilərdə daimi yaşamaq üçün köçməyə hazır olan ailələrin sayının 200 mindən çox, əmək qabiliyyətli işçilərin sayının isə 500 mindən çox olduğunu nəzərə alsaq, onda bu insanların hazırda işlədiyi ərazilərdə əmək bazarında təklif şokundakı sola sürüşmənin nə dərəcədə yüksək olacağını təsəvvür edə bilərik. Bu zaman təklif şokunda baş verən hadisə əməyin qiymətində, tələbin dəyişmədiyi halda, artımların olacağını deməyə əsas verir.

Azərbaycanın əmək bazarının rastlaşdığı bu hal unikaldır. Ona görə də əmək bazarında baş verəbiləcək dəyişikliklərin proqnozlaşdırılması ilə bağlı digər ölkələrin təcrübəsindən öyrənmək xeyli çətindir. Digər ölkələrin təcrübəsi ilə bağlı yuxarıda nəzərdən keçirdiyimiz hallar əsasən miqrantların hesabına təklif həcminin artmasına aiddir. Azərbaycan üçün tədqiq etmək istədiyimiz hal isə, əksinə daxili miqrasiya nəticəsində əmək bazarında təklif həcminin azalması halına aiddir. Buna baxmayaraq, hər iki halda tələbin dəyişmədiyini fərz edərək, təklif həcminin dəyişdiyi hallarda əmək bazarında baş verəbiləcək proseslərin proqnozlaşdırılması aparıla bilər. Azərbaycanda qaçqın və köçkün ailələrinin işğaldan azad olan ərazilərə, əsasən öz doğma yerlərinə qayıtması siyasəti mahiyyətcə elədir ki, köç proseso o ərazilərdə tələbin artması ilə paralel həyata keçiriləcək. Bu çox mühümdür. Belə ki, yenidən məskunlaşma nəzərdə tutulan ərazilərdə işlə təminatda çətinlik olmayacaq və əmək qabiliyyətli əhalinin mütləq əksəriyyəti özüməşğulluqla deyil, muzdlu işlərlə təmin ediləcəklər. Beləliklə, işğaldan azad olan ərazilərdə yenidən məskunlaşan əmək qabiliyyətli əhali o regionlara əmək bazarında tələbə uyğun təklif həcmini formalaşdıracaqlar. Lakin onların tərk etdiyi ərazilərdə, məsələn, Bakıda və ya digər rayonlarda əmək bazarında təklif həcmi kəskin azalacaq və belə əmək bazarlarında təklifin azalması tələb həcminə uyğun olaraq bazarda əməyin qiymətinə təsir göstərəcək. Bu halda yeni əmək qüvvəsinin özüməşğullar qrupundan bazara daxil olması mümkündür.

**Nəticə**

Beləliklə, Azərbaycanda işğaldan azad olan ərazilərə əhalinin köçürülməsi prosesini daxili miqrasiya prosesi kimi xarakterizə edərək, onun əmək bazarına təsirlərini Dustmann və digərlərinin (2017) tərəfindən aparılan tədqiqatın metodologiyasının sadələşdirilmiş variantından istifadə edərək qiymətləndirə bilərik. Bu zaman metodologiyanın sadələşdirilməsi məqsədilə bir neçə fərzlərin edilməsi vacib olacaqdır. Bu tədqiqatda daxili miqrantlara xas olan iki keyfiyyət, yəni təhsil və yaş səviyyəsi əsas götürüləcək.

**ƏDBİYYAT SİYAHISI:**

1. Calderón-Mejía, V., & Ibáñez, A. M. (2015). Labour market effects of migration-related supply shocks: evidence from internal refugees in Colombia. Journal of Economic Geography, 16(3), 695–713. doi:10.1093/jeg/lbv030
2. Kleemans, M., & Magruder, J. (2017). Labour Market Responses To Immigration: Evidence From Internal Migration Driven By Weather Shocks. The Economic Journal, 128(613), 2032–2065. doi:10.1111/ecoj.12510
3. Borjas, G. J., & Monras, J. (2017). The labour market consequences of refugee supply shocks. Economic Policy, 32(91), 361–413. doi:10.1093/epolic/eix007
4. Hameed, M.A.; Rahman, M.M.; Khanam, R. Analyzing the Consequences of Long-Run Civil War on Unemployment Rate: Empirical Evidence from Afghanistan. Sustainability 2023, 15, 7012. https://doi.org/10.3390/su15087012
5. Berker, A. (2011). Labor-market consequences of internal migration in Turkey. Economic Development and Cultural Change, 60(1), 197-239.
6. Alecke, Björn and Mitze, Timo and Untiedt, Gerhard, (2009). Internal Migration, Regional Labour Market Dynamics and Implications for German East-West Disparities - Results from a Panel VAR (March 1, 2009). Ruhr Economic Paper No. 96, Available at SSRN: https://ssrn.com/abstract=1374981 or http://dx.doi.org/10.2139/ssrn.1374981
7. Mitze, T. (2018). The migration response to local labour market shocks: Evidence from EU regions during the global economic crisis. Oxford Bulletin of Economics and Statistics. doi:10.1111/obes.12271
8. Beyer, R. C. M., & Smets, F. (2015). Labour market adjustments and migration in Europe and the United States: how different? Economic Policy, 30(84), 643–682. doi:10.1093/epolic/eiv011
9. Irena Zareva, 2018. returning migrants – effects on the labour market in Bulgaria. Economic Studies (Ikonomicheski Izsledvania), 27 (2), p. 102-114
10. Yetkin Aker, D., & Görmüş, A. (2018). Employment of Return Migrants in Turkey: Evidence from the Labour Force Survey. Migration Letters, 15(3), 437–451. https://doi.org/10.33182/ml.v15i3.364
11. Christian Dustmann, Uta Schönberg and Jan Stuhler, 2017. Labor supply shocks, native wages, and the adjustment of local employment. The Quarterly Journal of Economics Vol. 132, No. 1 (February 2017), pp. 435-483
12. Lukianenko, I., & Oliskevych, M. (2015). The Effects of Shocks on the Ukrainian Labor Market: SVEC Modeling. Procedia Economics and Finance, 27, 311–322. doi:10.1016/s2212-5671(15)01002-3

**Халил Ильгар оглу ГУЛУЗАДЕ**
Докторант Университета Одлар Юрду

## ОПЫТ ОЦЕНКИ ШОКОВОГО ВОЗДЕЙСТВИЯ НА РЫНОК ТРУДА НЕКОТОРЫХ СТРАН

**Резюме**

В статье теоретически проанализированы шоковые эффекты или колебания, а также изменения функций спроса и предложения на рынке труда в разных направлениях. Автор пришел к выводу, что в отличие от функции спроса на труд функция предложения возрастает с ростом заработной платы при сохранении остальных условий неизменными. Пересечение этих двух функций представляет собой равновесную численность работников на рынке труда и равновесный уровень заработной платы.

**Ключевые слова:** рынок труда, функция спроса, функция предложения, цена, равновесие.

**Khalil Ilgar GULUZADE**
Doctoral student of Odlar Yurdu University

## THE EXPERİENCE OF ASSESSİNG SHOCK EFFECTS ON THE LABOR MARKET FOR SOME COUNTRİES

**Резюме**

In the article, shock effects or fluctuations, as well as changes in the demand and supply functions in the labor market in different directions, were theoretically analyzed. The author came to the conclusion that, unlike the demand function of labor, the supply function increases with the increase in wages, other conditions remaining unchanged. The intersection of these two functions represents the equilibrium number of employees in the labor market and the equilibrium wage level

**Keywords:** labor market, demand function, supply function, price, equilibrium.

**Daxil olub:** 02.07.2023